https://doi.org/10.59849/2410-5600.2025.1.54

UOT: 398.

**Qumru Şəhriyar**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*İçərişəhər, Kiçik Qala döngəsi-8, Bakı*
*e-mail: nevayi-qumru@rambler.ru*

# QIRX BATIR HAQQINDA DASTAN SİLSİLƏSİNDƏ "MÜXTƏLİF BATIRLAR HAQQINDA DASTANLAR"

**Xülasə**

Silsilə dastanlar bu günə qədər geniş tədqiq olunmamışdır. "Koroğlu" dastanının özbək variantı, qırğızların "Manas" dastanı, qaraqalpaqların "Tulumbi" dastanı və s. bu kimi dastanların silsilə yaratdığına baxmayaraq, onun haqqında ətraflı araşdırmalar yoxdur. Bu məsələ, əslində, silsilələrin əsas mahiyyətinin dərindən öyrənilməməsi ilə bağlıdır.

Qırx batır haqqında dastanlar silsiləsi daxilində daha dörd irihəcmli silsiləni ehtiva edir: "Anşıbay və onun nəsli", "Karadön və onun nəsli", "Kıdırbay və onun nəsli" və "Müxtəlif batırlar haqqında dastanlar". Bəzən yanlış olaraq "Kıdırbay və onun nəsli" silsiləsi "Müxtəlif batırlar haqqında dastanlar"a aid edilir.

Əslində Qırx batır haqqında dastan qəhrəmanlarının hər biri Qızıl Orda tarixində adını qızıl hərflərlə yazdırmış sərkərdə, Noqay Ordasının qurucusu Edigeyin şəcərəsinə aiddirlər. Ona görə də şəcərənin əsas bağı məhz onun haqqında yaranan "Edigey" dastanıdır. Bu o deməkdir ki, orta əsrlərdə Qızıl Ordada və ondan sonrakı Ordaların (Böyük Orda, Noqay Ordası və s.) süqutunaqədərki dövrdə yaranan bütün qəhrəmanlıq dastanları bu silsiləyə daxildir.

Qeyd edək ki, "Müxtəlif batırlar haqqında dastanlar" silsiləsinə daxil olan epik mətnlər ayrı-ayrılıqda alimlər tərəfindən tədqiqata cəlb olunmuşdur.

***Açar sözlər:*** *Qırx batır, dastan, silsilə, epik mətn, şəcərə*

## Giriş

*Epik silsilənin yaranma səbəbi, əslində, tarix səhnəsində baş vermiş hadisələri sona qədər izləmək ehtiyacından yaranır. Silsilənin əsasını nisbətən kiçikhəcmli mətnlər təşkil edir. Silsiləyə daxil olan dastanların personajlarının böyük əksəriyyəti tarixi şəxsiyyətdirlər və onlar Orta Asiyada uzun əsrlər boyunca hökm sürən Qızıl Orda və onun törəmələrinin xanı, bəyi və sərkərdəsi olublar. Silsilə bioqrafik prinsiplər üzərində qurulmuşdur, amma buna baxmayaraq, epik düşüncənin qoyduğu bütün qaydalara da riayət edir.*

*Silsilənin özəyini təşkil edən, təbii ki, bir süjet xətti var. Bu süjet xəttini, əsasən, qəhrəmanın həyatı ilə əlaqəli epizodların xronoloji ardıcıllığı təşkil edir. Silsilənin həcmindən, hansı dövrdə təşəkkül tapmasından asılı olmayaraq, onun içərisində əsas bağ hesab edilən bir halqa mövcud olur. Məsələn, bu, "Koroğlu" dastanının özbək və türkmən variantlarında Koroğlu, qırğız dastanı "Manas"da Manas, qaraqalpaq dastanı "Tulumbi"də isə Tulumbidir. Bilindiyi kimi, "Koroğlu" dastanının özbək və türkmən variantlarının yaratdığı silsilə Koroğlunun şəcərəsini, yəni oğlu Övəzi, nəvəsi Nurəlini və nəticəsi*

*Cahangiri əhatə edir. "Manas" dastanında bu, Semetey və Seytek dastanlarıdır. "Tulımbi" dastanı"nın davamı isə "Nuradin" adlanır. Orta Asiya dastanları üçün xarakterik olan belə silsilə dastanların sayını artırmaq olar. Qırx batır haqqında dastan silsiləsində isə bu, "Edigey" dastanıdır. Silsilə məhz onun şəcərəsi əsasında yaranıb.*

**Qırx batır haqqında dastan silsiləsinin strukturu və formalaşması**

Qırx batır haqqında dastan silsiləsi orta əsrlərin epik ənənəsindən doğan geneoloji parametrlər üzərində qurulmuşdur. Silsilənin strukturunu və formalaşma səbəbi müxtəlif baxış bucağından izah edilir. Silsilənin tərkibində daha dörd silsilə yer alır: "Anşıbay batır və onun nəsli", "Karadön batır və onun nəsli", "Kıdırbay və onun nəsli", "Müxtəlif batırlar haqqında dastanlar".

V.Trepavlov "Qırx batır" silsiləsini "Şəcərə" adı altında təqdim edərək xronoloji baxımdan birinci silsilənin, yəni "Anşıbay batır və onun nəsli" silsiləsinin dördüncü dastanı olmasına baxmayaraq, "Edigey"i silsilənin "ilk həlqəsi" adlandırır [12, s.24]. A.Karatayev isə haqlı olaraq bu silsilənin ən başında "bütün batırların atası Anşıbay"ı [10] görür. Əslində "Anşıbay" dastanı silsilənin ilk həlqəsini təşkil etməsinə baxmayaraq, o, passif fonda dayanan bir dastandır. Ondan sonra gələn "Parpariya" və "Kuttıkıya" dastanları da onun kimi o qədər də geniş yayılmayan və demək olar ki, auditoriyası və variantları olmayan dastanlardır. Yəni silsilədən kənarda bu dastanlar mövcud deyil. Onları yalnız silsilə hadisəsi adlandıra bilərik. Silsilə gərəyi bu dastanlar müstəqilləşib və silsilənin bir həlqəsi halına gəlib. Dördüncü həlqəni təşkil edən "Edigey" isə onlarla variantı olan və Orta Asiyada kifayət qədər aktiv olan bir dastandır. Ondan sonra gələn dastanlar da ən az "Edigey"in özü qədər geniş auditoriyaya malik olan epik mətnlərdir. Məsələn, "Musaxan", "Orak və Mamay", "Karasay və Kazı", "Şora batır", "Koblandı batır" və s. Sadəcə bu silsilənin zirvəsində dayanan "Edigey" dastanıdır.

Beləliklə, Qırx batır haqqında dastan silsiləsi öz daxilində müstəqil silsilələri ehtiva edir. Onlar aşağıdakı kimi sistemləşdirilir:

1. Anşıbay batır və onun nəsli – Anşıbay batır, Baba Tükti Şaştı Aziz, Parpariya, Kuttıkıya, Edigey, Nuradin, Musaxan, Orak, Mamay, Karasay, Kazı;
2. Karadön batır və onun nəsli – Karadön batır, Jubanış, Suyniş, Er Bequs, Kögis, Tama batır, Tana batır, Narık batır, Şora batır, Kulınşak batır;
3. Kıdırbay və onun nəsli – Koblandı batır, Şıntasulı Törehan, Emet batır, Alav batır, Kökşe batır-Kosay batır;
4. Müxtəlif batırlar haqqında dastanlar – Asan Kayqı, Abat batır, Toqan batır, Karğaboylu Kartuqan batır, Akjonasulı er Kenes, Manaşı batır, Manaşulı Tuyakbay batır, Aysaulı Ahmet, Janbırşıulı Telaqis.

Biz burada "Müxtəlif batırlar haqqında dastanlar"dan söz açacağıq. Bu bölümdə doqquz batırın adı çəkilsə də, beş dastan yer alır.

**1. "Asankayğı, Toğan, Abat" dastanı.** Asan varlı adam idi. Bir gün bir noqay ona bir dəryanın, orada isə heç kimin bu günə qədər görmədiyi bir balığın olduğunu deyir. Asan mirzə də dostlarından birini çağırıb o balığı görmək istədiyini deyir və birlikdə yola çıxırlar. Gəlib görürlər ki, dəryada bir nəfər balıq tutmaq üçün tor atır. İkincisini də atıb o tora düşəni Asana verəcəklərini deyirlər. O zamanlarda bir pəri qardaşından onu insanla evləndirməsini istəyir. Qardaşı da bacısının bu istəyini yerinə yetirmək üçün bir sandıq düzəltdirir, qızı onun içinə qoyub dənizə atır. Balıqçının Asan üçün atdığı tora bu sandıq düşür. Asan sandığı açanda içindən gözəl bir qız çıxır. Qız Asana üç şərt qoyur: birincisi, yatağa uzananda ona toxunmaması, ikincisi, otaqdan çıxıb gedəndən sonra pərdənin arxasından gizlicə baxmaması, üçüncüsü isə üç il danışmayacağını və bunu da kimsəyə deməməsidir. Asan şərtləri qəbul edir. Bir müddətdən sonra camaat lal qadınla evləndiyi üçün Asana lağ edirlər. Camaatın dedi-qodusundan bezən Asan qızı danışdırmaq üçün əlindən gələni edir. Bu əsnada qəfil otağa girəndə çılpaq şəkildə uçmağa hazırlaşdığını

görür. Qadın Asana sözünü tutmadığı üçün uçub gedəcəyini, beş aylıq hamilə olduğunu, uşağı Misirdə doğub orada qoyacağını deyir və yox olur. Asan arvadının yox olmasının acısı ilə yeddi il sərgərdan gəzir. Qayğılı olduğu üçün də ona Asan Qayğı deyirlər. Asan oğlunu tapır. Onun adı Abat idi. Bir gün Adil Janibek xan Həştərxan şəhərinin inşaatı bitdiyinə görə xalqa ziyafət verir. Xan Asanı da dəvət edir, amma o gəlmir. Bir müddədən sonra xan onu oğlunun sünnət toyuna dəvət edir. Bu dəfə Asan gəlir. Xan əvvəl niyə gəlmədiyini soruşanda Asan şəhərin inşası zamanı onun heç bir əziyyət çəkmədiyini, əziyyət çəkənlərin gəlməsinin doğru olacağını deyir. Xan Asandan noqay elində kimin ən yaxşı nişançı, kimin ürəyi geniş, kimin igid olduğunu soruşur. Asan hamısında oğlu Abatın adını çəkir. Janibek Abatı sınamaq qərarına gəlir. Onun bir şahini vardır. Vəhşi bir şahin xanın şahininin ov etməsinə icazə vermir. Xanın əmri ilə Abat şahinin quyruğunu iki hissəyə bölür, şahin bir daha gəlmir. Xan noqay yurdunun igidlərini bir yerə toplayıb ələ keçirə bilmədiyi bir düşməninin olduğunu, kimin o düşmənin üzərinə yürüş etmək istədiyini soruşur. Abat yanına Krımın məşhur igidləri olan Toqanı, Aysaulı Ahmeti, Bahadır Alav ilə Er Sameti, Karğaboylını, Şıntasulı Törehanı, Akjonasulı Er Kenesi, Tarqını, Kavini və qırx igidin hamısını götürüb iki aylıq məsafədəki kalmık elinə yollanır. Bundan xəbər tutan kalmık xanı yüz əsgərlə onların qarşısına çıxır. Təkbətək döyüşdə Abat xanı öldürür. Xan öləndən sonra oğlu hücuma keçir. Amma Abat onun da başını kəsir. Er Abat, Er Toqan, Aysaulı Er Ahmet kalmıkları darmadağın edir, yurdlarına geri dönürlər. Bu dəfə də Janibek xan Abatın səbrini sınamaq istəyir. O, Abatın evinə bir nökər göndərir və ona Abat evdən çıxanda arvadının yatağına girib yatmağını tapşırır. Nökər xanın dediyini edir. Abat evə gələndə nökərlə arvadını yataqda qol-boyun yatarkən görür. Abat onların qollarını bir-birindən ayırır və çıxıb gedir. Arvadına isə heç nə demir. Bundan sonra Janibek xan Abatı yanına çağırır. Asan xanın oğlunu çağırdığını eşidən kimi ona Janibek ondan nə istədiyini soruşsa, Şat və ərtaf torpaqlarını istəməsini, o yerlərin kasıb və yoxsul xalqı üçün münbit ərazi olduğunu, bunun sayəsində Şınqırlavdan köçüb noqay xalqı ilə birlikdə ayrı yurdda yaşayacaqlarını deyir. Abat da atasının dediyi kimi edir. Janibek Abatın bütün sınaqlardan çıxdığına görə Şat və ətraf torpaqlarını ona verir. Noqay xalqı iki gün sonra Şata gəlib orada məskunlaşır və adını da Jem qoyur. Bir neçə ildən sonra Togan Batır kalmıklardan intiqam almaq üçün Abat ilə yürüşə çıxmaq istəyir. Fikrini Asankayğıya deyir. O da razı olur. İki igid birlikdə yola çıxırlar. İki ay yarımdan sonra kalmık elinə yetişirlər. Yolda bir kalmıkla rastlaşıb Tuvlak xana xəbər göndərirlər. Xan yüz nəfərlə onların qarşısına çıxır. Ağır döyüşdən sonra səksən nəfəri öldürür, kalmık elindəki qənimətləri ələ keçirərək yurdlarına geri dönürlər [9, s.359-379; 3, s.828-873].

**2. Karğaboylı, Kaztuğan" dastanı.** Doxsan evli nogaylarla məsləhət-məşvərət edib geri qayıdan Kaztuğanın dəvələrindən biri qaçır. O da heyvanın arxasınca getdiyindən səkkiz gün idi ki, ailəsinin ondan xəbəri yox idi. Kaztuğanın bir qızı var idi. Qız atasını axtarmağa təkbaşına gedə bilmədiyi üçün Karğaboylıdan yardım istəyir. Karğaboylı noqayların arasında qıza yardım etmək üçün bir nəfər adam axtarır, amma heç kim ona kömək etmək istəmir. Ölkəni kiməsə əmanət etmək mümkün olmadığından özü də qızla birlikdə gedə bilmir. Karğaboylı bilirdi ki, əgər o getsə, kalmıklar fürsətdən istifadə edib o saat yurduna hücum edəcəklər. Vəziyyəti qıza başa salır, bir az da gözləməsini, atasının mütləq geri dönəcəyini deyir. Qız gözləyə bilmir, atasının şaraynasını geyinir, nizəsini götürür, saçını dəbilqənin içində gizlədib kişi paltarları geyinərək yola çıxır. Yolda bir nəfərin ona doğru gəldiyini görür. O, Karğaboylı ilə Kaztuğanın doxsan evli noqaylarla məsləhət-məşvərət etmək üçün yurddan çıxdıqları xəbərini xana aparan kalmık gözətçisi idi. O, qıza yaxınlaşıb kim olduğunu soruşur, qız da Kaztuğan olduğunu, arxadan üç min nəfərlik ordu ilə Karğaboylının da gəldiyini deyir. Üstəlik nizə ilə gözətçini yaralayıb kalmıklara da xəbər göndərir. Kalmıklar Kaztuğanın qarşısına çıxmaq üçün ordu hazırlayırlar. Qız kalmık bəyini təkbətək döyüşə çağırır. Altı gün orduyla təkbaşına döyüşən qız əcdadlarının ruhundan yardım istəyib ordunu talan edir, ata minib yoluna davam edir. Yolda atasını tapır, noqaylardan kimsənin onunla gəlmək istəmədiyini, yolda kalmıkları talan etdiyini atasına danışır. Üç gün dincəldikdən sonra birlikdə geri qayıdırlar. Bir az dincəldikdən sonra Kaztuğan köç edən noqayların arxasınca gedir.

Təxminən bir ay sonra noqayların məskunlaşdığı Kazanşık adlı ərazini tapır. O əsnada Seren adlı kalmuk xanı da Kazanşıka doğru ordusu ilə yola çıxır. Bunu eşidən Kargaboylı dostu Kaztuğandan yardım istəyir. Amma Kaztuğanın arvadı ərinin getməsinə razı olmur, çünki onların çətin vaxtlarında noqaylılar onlara yardım etməmişdir. Buna baxmayaraq, Kaztuvğan yola çıxır. Bir müddətdən sonra Kaztuğan və Karğaboylı yolda bir-birlərinə rast gəlirlər. Kalmıklar yüz nəfərlik ordu ilə onlara hücum edir. Aralarında qanlı döyüş başlayır. Seren xan qaçmağa çalışsa da, Kaztuğan onun başını kəsir. Qənimətləri götürüb kalmık əsgərlərini önlərinə qatan Kaztuğan və Karğaboylı yurdlarına geri qayıdırlar [11, s.380-399; 4, s.874-933].

**3. "Akjonasulı Er Kenes" dastanı.** Qırx boylu Krımda, on iki yarım boylu Anadoluda, on iki yarım xan səltənət qurmuşdur. Bu xanlardan biri də Akjonas xandır. Özünün yetmiş, arvadının isə əlli yaşı var. Övladları yoxdur. Bu, Akjonası o qədər də narahat etmir. Bir gün arvadı övladsızlıq dərdindən kədərləndiyini ərinə deyir və o da bundan təsirlənir O bu dərdini Aralhan adlı müdrik bir qazı ilə bölüşür. Aralhan Akjonas xana Şahimardana getməsini, orada Allahın Aslanının başında bir gece keçirməsini tövsiyə edir. Yola çıxarkən arvadı Aruvbiybi ona getməməsini, gənc bir qızla evlənsə, uşağı olacağını, gedərsə, yurdlarına kalmıkların hücum edəcəyini desə də, Akjonas xan yola çıxır. Bir müddətdən sonra Hz. Alinin qəbrinə yetişirlər. Akjonas elə məzarın başında dərdini danışıb oradaca yuxuya gedir. Yuxuda Hz. Ali onun dualarının qəbul olunduğunu, bir oğlu olacağını, adını Kenes qoymasını söyləyir. Akjonas geri qayıdır. Otuz gün sonra yurduna yetişib arvadına olanları danışır. Yetmiş gündən sonra qadın yerikləməyə başlayır. Qoç, buğa kəssələr də qadının yerikləməsi keçmir. Aralhan qadının ya əjdəha, ya da sarıüyek (ilan növü) başı yeməsini məsləhət dörür. Yeddi sarıüyek tapıb qadına gətirirlər. O da ilanların başını çiy-çiy, çeynəmədən udur və yerikləməsi keçir. Doqquz ay on gün sonra qadın oğlan doğur. Kenes beş-altı yaşında uşaqlarla aşıq-aşıq oynayanda onun qardaşı yoxdu deyə Kenesi döyürlər. Bundan kədərlənən Kenes kalmık xanı Karanın yurduna yürüş etmək qərarına gəlir. Kalmık xanı Karanın qarğışları tez tutarmış. Kimə qarğış etsə, ölərmiş. Karanın qızı Karlıqaş yuxusunda bir quşun yurdlarına gəldiyini, hər kəsin də ondan qorxub qaçtığını görür və atasına deyir. Atası isə ona nizə kimi iti qarğışının olduğunu deyir. Karlıqaş uzaqdan Kenesin gəldiyini görüb onu xanın yanıına buraxmaq istəməsə də, Kenes içəri girir, Karanın başını kəsir. Şəhəri talan, Karlıqaşı isə özünə arvad edir. Kenes səfərə çıxanda noqaylar kalmıklardan qorxduqları üçün hərəsi bir tərəfə qaçırlar. Akjonasın düşməni olan Baqlan Taz yaşlı bir adamı onun yanına göndərir. Akjonasın ona yazığı gəlib evində saxlayır. O isə kalmık xanının yanına gəlib Akjonasın yaşlı, silahsız və tək olduğunu, oğlunun isə səfərə çıxdığını deyir. Baqlan Taz da o saat Akjonasın üzərinə hücum edir, onlara işgəncə verir, sürüyə-sürüyə kalmık elinə göndərir. Özü isə keçəl cildinə girib Kenesi gözləmək üçün Noqay elində qalır. Kenes gələndən sonra o, baş verənləri danışıb əgər onu da atının tərkinə alarsa, onu kalmık elinə aparacağını deyir. Yolda atı Aktanav Kenesə tərkindəkini endirməyi deyir. Kenes də onu tərkindən endirib yoluna davam edir. Baqlan Taz at quyruğunun bir telini yandıran kimi iki at peyda olur. Birinə minir, birini isə yanında götürüb Kenesin yanına gəlir və ona kim olduğunu, əgər cəsarəti varsa, kalmık elinə gəlməsini deyib gözdən itir. Kenes Baqlan Tazın yurduna gəlir, anasının inək otardığını görür. Atasının bir ağaca bağlı olduğunu öyrənib onun yanına getmək istəyəndə Baqlan Taz böyük bir orduyla onun qarşısına çıxır. Kenes yüzlərlə əsgəri öldürəndən sonra Baqlan Tazla təkbətək döyüşür. Ağır döyüş günlərlə davam edir. Bu əsnada anası atasının bağlı olduğu ağacı tapır. Akjonas ayaqqabısının içində cib bıçağı olduğunu deyir. Qadın onunla Akjonasın əllərindəki, ayaqlarındakı və boynundakı zincirləri kəsir. Oğlunun yanına gedib həmin bıçaqla Baqlan Tazın qarnını kəsir. Sonra onun atına minib oğlu ilə birlikdə Baqlan Tazdan intiqamlarını alırlar. Kalmıkları əsir götürüb yurdlarına geri dönürlər. Onları Karlıqaş qarşılayır. Xalqının qarşısında Kenesin gücü gün keçdikcə artır [8, s.429-450; 2, s.998-1045].

**4. "Aysanulı Axmet batır" dastanı.** Bu dastanın müxtəlif variantları var. Biz burada yalnız ikisindən bəhs edəcəyik:

1. Anonim söyləyicidən toplanan variant – Axmetin atası Aysa Canıbey xana nə qədər sədaqətlə qulluq etsə də, onun haqsızlıqlarına bir o qədər də dözmür. Xanın nöqsanlarını üzünə deyir. Bu da onların arasında mübahisəyə səbəb olur. Ona görə də Aysa ailəsini tərk edib uzaqlara gedir. Axmet atasının harada olduğundan xəbərsiz, maddi sıxıntılar içərisində böyüyür. Aysa uzun zaman evindən, ailəsindən uzaqda olsa da, bir gün düşmənlərin onun xalqı üzərinə basqına hazırlaşdığını eşidir. Bunu eşidən Aysa Canıbeylə ədavətini unudub evinə geri dönür. Xanın çətin vəziyyətdə olduğunu görüb onunla barışır. Oğlu Axmeti döyüşə yola salır. Düşmən Canıbeyin qoşunlarını darmadağın edir. Axmet xana yardım edib onu ölümdən qurtarır. Özü isə həyatını riskə ataraq döyüşü davam etdirir. Bunu görən xan: "Məgər, sən öz həyatını qiymətləndirmirsən?" deyə sual verir. Axmet isə cavabında: "Əgər məni öldürsələr, mənim kimi çoxları doğular. Bundan vətənə zərər gəlməz. Əgər səni öldürsələr, xan, bunu bütün aləm bilər və vətənim başsız qalıb dağılar" deyir. Canıbey xan da qızı Şaarbeki Axmetə verəcəyini vəd edir və düşünür ki, Axmet bu ağır döyüşdən sağ çıxmayacaq. Axmet döyüşü qələbə ilə başa vurur. Xan fikrini dəyişərək qızını varlı Bukalın oğlu Teymura ərə vermək istəyir. Şaarbek atasının vədinə dönük çıxdığını Axmetə xəbər verir. Axmet qızı da götürüb qaçır. Xan Axmetin öhdəsindən gələ bilməyəcəyini görüb dostları ilə onun arasını vurur. Dostlarından inamsızlıq görən Axmet atını minib Şaarbeki də qucağına alaraq uca qayadan atılır [6, s.188-189].

2. Murin Sengirbekuli variantı – Aysanın qırx yaşı olanda oğlu Ahmetin on beş yaşı var idi. Bir gün noqay elində bəylər məşvərət məclisi qurur. Alav batır Aysanı başçı seçərək xalqı bu yurddan onun yanına köçürməyin doğru olacağını deyir. Qoca Asanqayğı isə oğları Abatjanı, Er Toğanı və Kargabolı, Kaztuğanı daha əvvəl köç edən noqayların yer-yurdlarının necə olduğunu öyrənmək üçün göndərir. İgidlər İdili (Volqanı) keçib Aysanın yanına gəlib Asankayğının dediklərini ona çatdırırlar. Aysanın oğlu Abat onları yaxşı qarşılamır. Bundan narahat olan Axmet səhər dan yeri sökülməmiş səssiz-səmirsiz qalxıb silah-sursatını qurşanır və təkbaşına kalmıkların üzərinə yürüş edir. Səhər açılıb olanlardan xəbər tutan batırlar noqay xalqını toplayıb İdilin sahilinə yola düşürlər. Abat isə Axmetin arxasınca yollanır. İdilin sahilində noqay elini məskunlaşdırandan sonra batırlar da Abatla Axmetin arxasınca kalmık elinə üz tuturlar. Onlar gələnə qədər Axmet kalmık xanı ilə təkbətək döyüşüb onun başını kəsir. Kaztuğan döyüş meydanında köhnə düşməni olan Serken batırla qarşılaşır. Hər iki batırın arasında qanlı döyüş olur. Sonda Kaztuğan Serkenin başını kəsir. Ağır və qanlı döyüşlər günlərlə davam edir. Noqaylar kalmıkların yurdunu yandırıb, mal-mülkünü talayıb, qızlarını özlərinə arvad edirlər. Qənimətləri toplayıb İdilin sahillərində onları gözləyən noqayların yanına geri dönürlər. Asankayğı da o zamana qədər gəlib Aysa ilə birlikdə batırları orada gözləyirdi. Batırların sağ-salamat geri döndüyünü görən Aysa ilə Asankayğı elə oradaca məskunlaşır və xalqı İdilin sahillərində xoşbəxt ömür sürürlər [7, s.492-501].

**5. "Adil sultan" dastanı.** Dastanın bir neçə variantı mövcuddur. Onların arasında ikisi V.Radlov tərəfindən Krımda noqay söyləyici Molla Mehmet Osmanovun dilindən yazıya alınmışdır. Biri Z.Taşkendi tərəfindən qazax-qırğız mətni kimi toplanmışdır. Digəri isə Nedret Mahmut və Ənvər Mahmut variantıdır.

1. Molla Mehmet Osmanov variantı – Bu variant digərlərindən həcm etibarı ilə daha böyükdür. "Krımlı Adil Sultan Hikâyeti" adlanan bu mətn Adil Sultanın anası Dana Begimin dilindən söylənən ağı şəklindədir [5, s.15].

2. Z.Taşkenti variantı – Dastanın bu variantında Adil Sultan Çingiz xanın soyundan olan Muhabbet Girayın oğlu kimi təqdim olunur. O, Hondharda (Hüdavendigâr) hökm sürərkən İdildəki xanlardan olan Alçı İsmaildən farsların üzərinə yürüş etməsi üçün bir fərman alır. Əvvəlcə həmin fərmanı heç kim oxuya bilmir. Sonradan Ebül-Hayr adlı bir gənc gəlir və fərmanı oxuyaraq Adil Sultanın farslar üzərinə yürüş etməli olduğunu bildirir [5, s.15].

3. Nedret Mahmut və Ənvər Mahmut variantı – Bir zamanlar Adil adlı bir sultan var idi. Adil iyirmi yaşına çatanda ona İstanbuldan iki qız, bir bəyaz at və bir arşın enində, iki arşın uzunluğunda bir

fərman göndərilir. Adil Sultan Krımın hər tərəfindən molla, qazı, müftü çağırıb fərmanı oxutmaq istəyir, amma heç kim oxuya bilmir. O zaman o, Abdülgazi Çelebini çağırır və fərmanda "yanında top, Dobrucadan at, Ədirnədən yay, Babadağdan ox, Krımdan əsgər götür, Orakoğlu Karaşayı orduya başçı təyin elə, qızılbaş ölkəsinə göndər. Onları qılıncdan keçir, ad-san qazan" yazıldığını öyrənir. Adil Sultan Karaşayı yolu-irzi öyrənmək üçün qabaqcan göndərir. O da gəlib görür ki, qızılbaşın qışlağında qırx min, sarayında isə yüz min əsgər var. Qala qapısından nə ilan keçə bilir, nə quş uça bilir. Karaşay Adil Sultana geri dönməyi təklif edir. Adil Sultan onu dinləmir və ordu ilə birlikdə Arpaçayı və Təbrizi keçir. Nəhayət, qüvvələr qarşılaşır. Düşmənin iki ordusunu məhv edən Karaşay başqa bir ordunun arxasınca gedəndə çox gözəl bir qızla qarşılaşır və onu qənimət kimi Adil Sultana gətirir. Adil Sultan Laz Tuşma adlı bu qıza aşıq olur. Əsgərlər geri dönüb Karasuya gəlir. Laz Tuşma nazlanar, gülümsəyər, qaş-göz oynadıb çayın aşağı tərəfində əsgərlərin düşərgə salıb silah-surstsız yatçalarına müvəffəq olur. Gecənin yarısı Karaşay çayın yuxarı başında atların ayaq səslərini eşidir, Sultana düşmən gəldiyini deyir. O, Karaşayı eşitmir. Qız isə səsini Adil Sultanın səsinə bənzədərək ona cavab verir. Karaşay ona atın quyruğundan tutmasını deyir. Qız atın quyruğundan yapışır. Karaşay onu çayın o biri tərəfinə keçirib atdan düşəndə qız atın tərkində geri dönür. Karaşay bir at tapıb Laz Tuşmanın arxasınca gedir. Çadıra yaxınlaşanda Adil Sultanın əl-qolunun zəncirlə bağlanıb top arabasında aparıldığını görür. Karaşay onların izinə düşür. Sübh tezdən iki ordu yenidən qarşı-qarşıya gəlir. Qanlı döyüş başlayır. Karaşay səkkiz yerindən yaralanır. Karaşayın bu halını görən Adil Sultan Krım əsgərlərini qırdırmamağı, özünün günahkar olduğunu deyib, onların geri qayıtmasını istəyir. Karaşay Krıma geri dönür. Adil Sultanın anası oğlunun əsir olmasına dözməyib gecə-gündüz ağlayır. Onun bu halına dözə bilməyən Karaşay dərviş libasında yenidən qızılbaş ölkəsinə gedir. Qızılbaş şahının bacısı Perihanla arvadı Şəhriyar Adil Sultana aşiq olurlar. Adil Sultan isə Perihana aşiq olur. Bunu öyrənən Şəhriyar Perihanı saraydan uzaqlaşdırmaq istəyir. Perihan isə Karaşayla birləşərək Adil Sultanı qaçırmağa çalışırlar. Şəhriyar vəziri çağırıb Perihanı zindana gələndə öldürməsini tapşırır. Vəzir isə hər şeyi şaha danışır. Şah zindana kim gəlirsə-gəlsin, öldürülməsini əmr edir. Şəhriyar Adil Sultanın yanına gəlib Perihanla qaçsa, onu öldürəcəyini deyir. Zindandan çıxanda şahın əsgərləri onu öldürürlər. Karaşay ilə Perihan isə zindana gəlib əsgərləri öldürür, Adil Sultanı azad edirlər. Saray qapısının önündə ata minmək istəyəndə vəzir onları görür və yenidən döyüş başlayır. Bu döyüşdə Perihan ölür. Əsgərlər yaralı halda yenidən əsir düşən Adil Sultanın qollarını və ayaqlarını kəsir, gözlərini çıxarır, bədənini hissələrə ayırırlar. Karaşay qaçır, yaralarını bağlayıb dərviş libasında yenidən saraya qayıdır. Perihan və Adil Sultanı bir məzara qoyub Baxçasaraya qayıdır. Adil Sultanın anası isə bu əsnada bir yuxu görür. Heç kim yuxusunu yoza bilmir, o da gəlib yuxusunu dərviş libaslı Karaşaya danışır. Karaşay ananın halına acıyıb yuxunu yaxşı yozur. Qadın onun dediklərinə inanmır. Bu əsnada Adil Sultanın ölüm xəbəri gəlir. Xalq toplanır, ehsan verilir. Məclisdən sonra Adil Sultanın anası ağı deyir. Çox keçmədən ana da dünyasını dəyişir. İkinci oğlu Qazi Giray anasının göz yaşı tökdüyü yerdə bir çeşmə tikdirir və onu "Baxçasaray göz yaşları çeşməsi" adlandırır [1, s.106-120].

**Nəticə**

*Göründüyü kimi, "Müxtəlif batırlar haqqında dastanlar" silsiləsinə daxil olan epik mətnlər ayrı-ayrılıqda müstəqil süjet xəttinə sahib olmasına baxmayaraq, onları birləşdirən noqay xalqı və onun azadlığıdır. Silsiləyə daxil olan daha əvvəlki şəcərələrin apardığı mübarizələrdə kalmıklar noqay xalqının qatı düşməni idisə, bu bölümdə ona qızılbaşlar da qoşulur.*

*Qırx batır haqqında dastan silsiləsinə Qızıl Ordanın və ondan sonra meydana çıxan Ordaların (Ağ Orda, Noqay Ordası və s.) ictimai-siyasi həyatında aktiv şəkildə iştirak edən sərkərdələrin, tarixi şəxsiyyətlərin həyat və yaradıcılıqlarından bəhs edən epik mətnlər daxildir. Ordaların zamanında Orta*

*Asiya ərazisində söylənilən, demək olar ki, bütün qəhrəmanlıq dastanları Qırx batır haqqında dastan silsiləsinə daxildir.*

*Qırx batır haqqında dastan silsiləsinin öyrənilməsi kifayət qədər yeni və bir o qədər də aktual məsələdir. Çünki silsilə epik mətn şəklində öyrənilməklə yanaşı, tarixi və coğrafi aspektdən tədqiqata cəlb edildiyi təqdirdə orta əsrlərdəki bir türk əsalətinin varlığı gözlərimiz önündə canlanır.*

**Ədəbiyyat siyahısı:**


1. Adil Soltan / Mahmut N., Mahmut E. Bozcigit. // Dobruca Tatar Masalları. – Bucureşti, 1988, s.106-120.
2. Akjonas Oğlu Er Kenes. // Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. / çev. F.Türkmen, M.Ekici. – Ankara: Türk Dil Kurumu Yayınları, − 2007. − s. 998-1045.
3. Asankaygı, Togan, Abat // Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. / çev. F.Türkmen, M.Ekici. – Ankara: Türk Dil Kurumu Yayınları, − 2007. − s. 828-873.
4. Kargaboylu, Kaztuvgan // Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. / çev. F.Türkmen, M.Ekici. – Ankara: Türk Dil Kurumu Yayınları, − 2007. − s. 874-933.
5. Kaya, D. Adil Sultan Destanı. Erciyes, Sayı 225, Eylül 1996, s. 15-17.
6. Şamil, Ə. Uyğur, Qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı. Bakı: Nurlan. –2011. – 412 s.
7. Айсаның ұлы Ахмет батыр. // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – б. 480-491.
8. Ақжонасұлы Ер Кеңес. // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – б. 429-450
9. Асанқайғы, Тоған, Абат. // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – б. 359-379
10. Каратаев А. Қырымның қырық батыры. https://vk.com/wall-38304529_307924
11. Қарғабойлы, Қазтуған // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. – Алматы: Brand Book. – 2019. – б. 380-399
12. Трепавлов В.В. История Ногайской Орды. / Отв. ред. М.А.Усманов. 2-е изд., испр. и доп. – Казань: Издательский дом «Казанская недвижимость», 2016. – 764 с.


**Gumru Shahriyar**

**"Epics about various batirs" in the epic cyclization about forty batirs**

***Summary***

Cyclization of epics have not been widely studied to this day. Despite the fact that such epics as the Uzbek version of the Koroglu epic, the Kyrgyz Manas epic, the Karakalpak Tulumbi epic, etc. form a series, there are no detailed studies about it. This issue is actually related to the lack of in-depth study of the main essence of the cycle.

The cyclizatioan of epics about Forty batyrs includes four more large-scale cycles: "Anshibay and his descendants", "Karadon and his descendants", "Kidirbay and his descendants" and "Epics about various batirs". Sometimes, the cycles "Kidirbay and his descendants" is mistakenly attributed to "Epics about various batirs".

In fact, each of the heroes of the epic about the Forty Batirs belongs to the genealogy of Edigey, the founder of the Nogai Horde, a commander whose name is inscribed in golden letters in the history of the Golden Horde. Therefore, the main link of the genealogy is the epic "Edigey", which was created precisely about him. This means that all heroic epics created in the Middle Ages in the Golden Horde and in the period before the collapse of the subsequent Hordes (the Great Horde, the Nogai Horde, etc.) are included in this series.

It should be noted that the epic texts included in the series "Epics about various Batirs" have been studied separately by scholars.

***Keywords:*** *Forty Batirs, epic, cyclization, epic text, genealogy*

*Professor **Əfzələddin Əsgər** tərəfindən çapa tövsiyə olunmuşdur.*